# MALIK ƏŞTƏR–SƏRKƏRDƏLƏRIN SƏRKƏRDƏSI

<"xml encoding="UTF-8?>

MALIK ƏŞTƏR–SƏRKƏRDƏLƏRIN SƏRKƏRDƏSI

İmam Əli (əleyhissalam) bir qoşunu iki nəfərin Ziyad ibni Nəzr, və Şürəyh ibni Haninin sərkərdəliyi altında Müaviyə ordusu ilə vuruşmaqdan ötrü cəbhəyə yollayaraq onlara İslam ordusunun qorunması və düşmənin xəbərsiz olması haqda müxtəlif üsullar öyrətdi.

Sonra Malik Əştəri onların ardınca göndərib əvvəldəki iki sərkərdəyə belə sifariş etdi.

Malik İbni Haris Əştəri sizin və onla-rın əmiri etdim, onun əmr və göstərişlərinə qulaq asıb icra edin. Onu özünüzün zireh və qalxanınız edin. O elə bir şəxsdir ki, güman etmirəm süstlük göstərib büdrəsin.

İmam Əli (əleyhissalam) başqa bir məsələdə Misir camaatına olan sifarişində Malik Əştərin şə”nində belə deyir:

Allahın bəndələrindən (Malik Əştər) birini sizə sarı göndərdim ki, müharibənin qorxulu vaxtı onu yuxu tutmur, düşməndən qorxmur və cinayətkarlara qarşı odun şöləsindən də yandırıcıdır. O, Malik ibni Haris qəbiləsindəndir. Sözünü eşidib fərmanını itaət edin.

“Çünki, Malik Əştər Allah qılıncla-rından biridir. Elə bir qılınc ki, itilikdən kütlüyə qayıtmır və zərbəsi təsirsiz olmur. Əgər o müharibə üçün hərəkət əmri verərsə hərəkət edin, yox əgər dayanmaq əmri verərsə dayanın. Onun gördüyü hər bir iş mənim gördüyüm işdir.

Mən belə bir şəxsiyyəti yollamaqda sizləri seçdim. Bundan ötrü ki, sizlərəi nəsihət edib yolu və çarəni sizə göstərsin, eləcə də düşmənlərinizə qarşı kəskin və barışmaz olsun.”

Budur Malik Əştərin Əli (əleyhissalam)-ın yanındakı parlaq siması Doğrudan da təəccüblüdür. Görəsən İmamlardan başqa elə bir şəxs tanıyırsınız ki, Məsum İmam bu qədər ona arxayın ...?olmuş ola